**Qərbi Azərbaycana qayıdış söhbətləri əslən bu torpaqdan olanların içində bir ümid cücərdib ki, nə zamansa yenidən o yurdlara, o kəndlərə qayıdacaqlar. Gizlin deyil ki, hər kəs özünü dinc yolla, sülh ovqatı ilə qayıdışa kökləyib.**

# Professor Ramiz Əsgər: "Mən Qərbi Azərbaycanın bu kəndində doğulmuşam"...

## ”...Doğulduğum Qaraçanta kəndi Şörəyel mahalına aiddir”

"Bakı-Xəbər" qəzeti olaraq, Qərbi Azərbaycanın yeryurd adları, toponimləri, abidələri, rayonların, kəndlərin tarixi, o cümlədən də geri qayıdışla bağlı orada doğulan, boya-başa çatan tanınmış simalarla, eləcə də sadə insanlarla müsahibələr təqdim edəcəyik.

İlk müsahibimiz Amasiya rayonunun (Şörəyel mahalı) Qaraçanta kəndində müəllim ailəsində doğulan, bu kənddə boya-başa çatan, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsini bitirən görkəmli jurnalist, türkoloq, professor Ramiz Əsgərdir.

Ramiz müəllimlə söhbətə keçməzdən əvvəl istəyirik ki, Qaraçanta kəndinin tarixi barədə qısa məlumat verək:

Qaraçanta (Qaraçəntey) kəndi rayon mərkəzindən 5.03 km cənub-qərbdə, Gümrü-Amasiya yolunun sol tərəfində, dəniz səviyyəsindən 1856 m hündürlükdə yerləşir, Qafqazın 5 verstlik xəritəsində qeyd edilib. Camaatın "Hulley" adlandırdığı dağın ətəyində yerləşən kəndin 1.5 km cənubundan Arpaçay keçir. Kənddən Ələyəz dağını görmək mümkündür.

Toponim qaraçanta nəsil adı əsasında yaranıb. Məlumatlara görə, Ermənistan SSR Ali Soveti RH-nin 4 may 1939-cu il fərmanı ilə adı dəyişdirilib Əzizbəyov, Ermənistan prezidentinin 19 aprel 1991-ci il fərmanı ilə yenidən adı dəyişdirilərək Areqnadem qoyulub.

Kəndin coğrafiyasına gəlincə, qeyd edilir ki, Qarsla sərhəddə yerləşən Qaraçantanın qışı olduqca soyuq, yayı mülayimdir. Burada "Duzdağ", "Qapılızağa", "Ömərdərəsi", "Arpaçayı", "Hülleydağ", "Ortatəpə", "Üçgözələr", "Məmmədağa", "Daşdərə", "Göybulaq" dağ, dərə, bulaq adlarıdır.

Məlumatlara görə, 1988-ci ildə Qaraçantada 600 ev, 314 ailə, 1750 nəfərdən ibarət olan kəndin məktəbinin tipi orta, şagirdlərin sayı 500 olub. Dini-ruhani dərslərin keçirildiyi kənddə dünyəvi dərslərin əsası 1927-ci ildə qoyulub. 1938-ci ildə 7 illik məktəb açılıb, 1962-ci ildən isə orta məktəbə çevrilib. Kəndin əhalisinə gəlincə, 1886-cı ildə 348 nəfər, 1897-ci ildə 440 nəfər, 1908-ci ildə 665 nəfər, 1914-cü ildə 729 nəfər azərbaycanlı yaşayıb. 1922-ci ildə kənddə 547 nəfər, 1926-cı ildə 670 nəfər, 1931-ci ildə 688 nəfər, 1939-cu ildə 774 nəfər, 1959-cu ildə 803 nəfər, 1970-ci ildə 1442 nəfər, 1980-ci ildə 1490 nəfər, 1987-ci ildə 1600 nəfər yalnız azərbaycanlı yaşayıb. Bu kənd qədim türk kəndidir və tariximizin izlərini yaşadır.

Bildirək ki, 1988-ci ildə azərbaycanlıların Ermənistandan kütləvi şəkildə köçürülməsinə başlanan vaxt kənd əhalisi kəndi tərk edib. 1988-ci ilin sonuna olan bəzi məlumatlara görə, kəndin əhalisi 1750 nəfər olub.

**- Ramiz müəllim, dinc yolla Qərbi Azərbaycana qayıdışla bağlı ortada dövlətin mövqeyi var, Prezident İlham Əliyev konkret fikir bildirib. Tarixi torpaqlarımıza qayıdış söhbətləri sizə necə təsir edir?**

- Əlbəttə, bunlar hamısı gözəldir. İlk dəfədir ki, bu məsələ dövlət səviyyəsində qoyulur. Əvvəllər müxtəlif tədbirlər çərçivəsində bəzi ictimai təşkilatlar və ayrı-ayrı şəxslər tərəfindən bu məsələ gündəmə gətirilirdi. Amma ilk dəfədir bu, gündəliyə dövlət siyasəti səviyyəsində gəlir. Bu da çox yaxşıdır. Demək ki, bir sıra problemlərimizi həll edəndən sonra artıq buna da diqqət yetiririk. Əlbəttə, ermənilər bu məsələni sakit qarşılamır, onlar bundan çox əndişələnir. Bilirsiz ki, Qərbi Azərbaycanla bağlı bir neçə təşkilatlar var, amma ermənilər bu təşkilatların fəaliyyətindən elə də hürkmürdülər. Amma bu, dövlətin atdığı addımdır, Prezident iclas keçirib, fikir bildirib. Ermənilər görürlər ki, bu dəfə xına o xınadan deyil, ona görə də əndişələniblər, təlaş içindədirlər. Prezident sağ olsun, bu məsləni rəsmən gündəliyə gətirdi. Bu, Qarabağ məsələsindən fərqlənir. Qarabağda torpaqlarımız istilaya uğramışdı, biz hərbi qüvvədən istifadə etdik, əkshücum əməliyyatı ilə torpaqları azad etdik. Qərbi Azərbaycana qayıdış isə bir az fərqli prosesdir.

**- O qayıdışı heç xəyalınıza gətirirsizmi?**

- Bu çox çətindir. Əgər biz desək ki, orada yaşamışıq, indi də qayıdıb yaşamaq istəyirik, bunu ermənilər də irəli sürəcək ki, biz də geri qayıdırıq. Çox fikirləşirəm ki, bəs geri necə qayıdacağıq? Mən geri qayıdışa ümumən nikbin baxıram, amma hesab edirəm ki, bu çox uzun və çətin prosesdir.

Amma üstün cəhətlərdən biri odur ki, Qərbi Azərbaycandakı kəndlərin əksəriyyəti boşdur. Sonuncu deportasiyadan 30 ildən çox vaxt keçib, oradakı kəndlərimiz artıq təbii dağıntıya məruz qalıb...

**- Məsələn, sizin doğulduğunuz Amasiya rayonunun Qaraçanta kəndi boşdurmu?**

- Boş deyil. Orada hardasa 3 minə yaxın ailə yaşayırdı, 400-500 ev vardı. İndi o qədər deyil, 30-40 ev yaşayışa uyğundur. Birinci zəlzələ olandan sonra gəlib evlər tikdilər, Ukrayna briqadaları bizim rayonu götürmüşdü və gəlib kəndlərin bəzilərində evlər, sosial-məişət binaları inşa etdilər. Ermənilərin sosial məişət nəyinə lazım? Girib evlərdə yaşayırlar. Bizim evlərin bir qismi uçub dağılmışdı...Bizim tərəflər qışda çox soyuq olardı və yadımdadır ki, bizə Ukraynadan kömür gəlirdi onu yandırırdıq. Ermənilər də başladılar boş evlərin taxtasını, döşəməsini, pəncərəsini söküb yandırmağa. Arpa gölü sahilində 42 dərəcə şaxta, soyuqluq müşahidə olunur. Hələ bizim kənd şəhərə ən yaxındır. Bizdən əvvəlki kəndlər Oxçuoğlu və Güllübulaqdır. Qaraçanta, Oxçuoğlu və Güllübulaq hər üçü çox böyük kəndlərdir. Həm də şəhərə yaxındır, məsafə 18 kilometrdir.

**- Amasiya rayonunu bizə necə tanıda bilərsiz?**

- Amasiya iki qisimdən ibarətdir - Ağbaba və Şörəyel. Mənim doğulduğum Qaraçanta kəndi Şörəyel mahalına aiddir.

**- Ağbaba ilə Şörəyelin fərqi nədir?**

- Şörəyel düzənlik, Ağbaba isə dağlıqdır. Dağ kəndlərində indi ümumiyyətlə yaşayan yoxdur, hazırda orada ermənilər yaşamırlar. Oxçuoğlunda yaşayırlar, çünki şəhərə yaxındır. Güllübülaqda 1000-ə yaxın ev var, orada da yaşayış olar, nə qədər dağılsa da 100 ev-filan qalar. O vaxt bizimkilər yalandan ermənilərlə evlərini dəyişmişdilər. Ermənilərin də çoxu iqlimin və torpağın bərəkətli olduğu yerlərə - Krasnodara və başqa yerlərə getdilər, ora getmək istəmədilər.

**- Ermənistana niyə getmədilər ki?**

- Onların çoxu erməni dilini bilmirdi. Həm də onlara "şurduvas"-"gəlmə" deyirdilər. Psixoloji baryerləri olduğu üçün getmək istəmirdilər.

**- Qaraçantadan neçə yaşınızda çıxmısınız?**

- 18 yaşımda.

**- Bəs sonuncu dəfə ora nə vaxt getmisiniz?**

- Kəndimizə yox. Amma 2015-ci ildə Ermənistana getmişdim.

**- Hansı yolla?**

- Avropa Şurasının Dərəçiçəkdə mətbuat və müharibə mövzusunda bir seminarı vardı, orada iştirak etmək üçün Azərbaycandan üç nəfər getmişdik. Orada iştirak etdik. Mən erməni dilində bildiyimi gizlətdim. Məndən erməni dilini bilib-bilmədiyimi soruşdular, dedim yox, yadımda qalmayıb, bundan 50 il əvvəl çıxmışam. Erməni dilini bilməyimi gizlətməyimin səbəbi onların bizimlə bağlı nə danışdığını bilmək idi. Arada ermənicə danışırdılar, o da süfrəyə lazım olan şeylər barədə...O seminarın ikinci hissəsi də olmalı idi. Amma mən gedə bilmədim.



*”Ermənilər görürlər ki, bu dəfə xına o xınadan deyil, ona görə də əndişələniblər, təlaş içindədirlər”*

**- İndi də sülhdən danışılır, Ermənistan sülh müqaviləsini imzalayacaqmı tezliklə?**

- İnanmıram ki, Ermənistan sülh müqaviləsini tezliklə imzalasın, əksinə, mümkün qədər uzadacaqlar...

Erməni milli xarakteri yaralı bir yırtıcıya bənəzyir. O hələ yaxın on ilə razı ola bilməz ki, biz ora qayıdaq, onlar bizim qayıdışımızı həzm edə bilməzlər. Onları o cür tərbiyə ediblər, onlar zahirən başqa cür görsənə bilərlər. Amma ermənilər yaralı yırtıcıdır və onlar türklərin qanını içirlər. Özü də həqiqi mənada.

**- Ailəniz yəqin ki, sonuncu deportasiya zamanı gəlib oradan?**

- Biz ailədə on uşağıq. Orada 4-ü qalmışdı, atama deyirdim ki, gəlin köçüb gedək, gəlmək istəmirdi. Amma ermənilər deportasiya etdilər, köçürdülər.

**- Atanız deportasiyanı da gördü demək...**

- Atam 2008-ci ildə burada rəhmətə getdi...

**- Qaraçanta kəndinin etimologiyası barədə nə deyərdiniz, tarixi, abidələri barədə araşdırmalarınız olubmu?**

- Sözün düzü, biz o vaxt bu kimi məsələlərlə elə də çox məşğul olmurduq. Fikrimiz-zikrimiz yaxşı oxuyub universitetə qəbul olmaq idi. Atamgil savadlı adamlar idilər və bilirdilər ki, gec-tez bizi oradan deportasiya edəcəklər. Çünki yavaş-yavaş xaricdən, ordan-burdan erməniləri köçürüb Ermənistana gətirirdilər. Sovet hökuməti də onların arxasında dayanırdı...

*İradə SARIYEVA*